# Avropa və Mərkəzi Asiyanın ən yaxşı universitetlərinin adları açıqlandı

Oruc MUSTAFAYEV

## BDU və Xəzər Universiteti ilk 100-lükdə yer aldı

Böyük Britaniyanın beynəlxalq təhsil xidmətləri sahəsində ixtisaslaşmış Quacquarelli Symonds (QS) agentliyi inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələrinin ən yaxşı universitetlərinin 2018-ci il üzrə reytinqini (QS EECA University Rankings 2018) açıqlayıb. Artıq 3 ildir ki, reytinq cədvəlinə Rusiyanın M.V.Lomonosov adına Moskva Dövlət Universiteti başçılıq edir. İkinci yerdə isə Rusiyanın daha bir ali məktəbi - Novosibirsk Dövlət Universiteti qərarlaşıb. Sıralamanın 3-cü pilləsində Estoniyanın Tartu Universiteti yerləşib.

Reytinqin tərtibçiləri qeyd edirlər ki, MDU "akademik nüfuz", "işəgötürənlər arasında nüfuz", "tələbə-müəllim nisbəti", "internet resursların effektivliyi" kimi kateqoriyalarda əla nəticə göstərərək 100 mümkün baldan 100 -nü toplayıb. Bütövlükdə reytinqdə dünyanın 24 ölkəsindən 300 ali məktəb yer alıb. Onlardan 97-si Rusiyanın payına düşür. Bu da ötən ildəkindən 33 universitet çoxdur. Azərbaycan reytinqdə 6 universitetlə təmsil olunur. Azərbaycan ali məktəblərinə Bakı Dövlət Universiteti başçılıq edir. BDU (95-ci yer) və Xəzər Universiteti (100-cü yer) ilk 100-lükdə yerləşir. Ölkəmizin daha 3 ali məktəbi - Azərbaycan Dövlət İqtisad Universiteti (161-170), Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti (171-180), Azərbaycan Dillər Universiteti (171-180), Bakı Slavyan Universiteti (201-250) 300 universitet arasında təmsil olunur.

QS ekspertləri tədqiqatın tərtib olunması gedişində universitetləri 9 göstərici - akademik nüfuz, işəgötürənlər arasında nüfuz, tələbələrin ali məktəb əməkdaşlarının ümumi sayına olan nisbəti, bir əməkdaşa düşən elmi nəşrlərin, elmi məqalələrə olan istinadların sayı, ali məktəbin internetdə fəallığı, əcnəbi müəllimlərin, elmi dərəcəli əməkdaşların və əcnəbi tələbələrin sayı kimi kriteriyalar əsasında təhlil ediblər. Reytinqlə daha ətraflı *www.topuniversities.com/university-rankings/eeca-rankings/2018* ünvanından tanış olmaq olar.

| Tutduğu yer | Ali məktəbin adı | Ölkə | Topladığı bal |
|---|---|---|---|
| 1. | Lomonosov Moscow State University | Rusiya | 100 |
| 2. | Novosibirsk State University | Rusiya | 96.7 |
| 3. | University of Tartu | Estoniya | 94.1 |
| 4. | Saint Petersburg State University | Rusiya | 92.7 |
| 5. | Charles University | Çexiya Respublikası | 90 |
| 6. | University of Warsaw | Polşa | 85.2 |
| 7. | Bogaziçi Üniversitesi | Türkiyə | 85.1 |
| 8. | Czech Technical University in Prague | Çexiya Respublikası | 84.7 |
| 9. | Middle East Technical University | Türkiyə | 84.5 |
| 10. | Al-Farabi Kazakh National University | Qazaxıstan | 84.3 |
| 11. | Tomsk State University | Rusiya | 84.2 |
| 12. | Bilkent University | Türkiyə | 83.6 |
| 13. | Moscow Institute of Physics and Technology | Rusiya | 83.3 |
| =14. | Jagiellonian University | Polşa | 83.1 |
| =14. | Koc University | Türkiyə | 83.1 |
| 16. | Sabanci University | Türkiyə | 82.4 |
| 17. | Masaryk University | Çexiya Respublikası | 81.7 |
| 18. | Vilnius University | Litva | 81.4 |
| 19. | Warsaw University of Technology | Polşa | 79.4 |
| 20. | Bauman Moscow State Technical University | Rusiya | 79 |
| 21. | Belarusian State University | Belarus | 78.6 |
| 22. | Brno University of Technology | Çexiya Respublikası | 78.5 |
| 23. | National Research Nuclear University MEPhI (Moscow Engineering Physics Institute) | Rusiya | 78.2 |
| 24. | L.N. Gumilyov Eurasian National University (ENU) | Qazaxıstan | 76.7 |
| 25. | National Research University Higher School of Economics (HSE, Moscow) | Rusiya | 75.8 |
| 26. | Istanbul Technical University | Türkiyə | 75.7 |
| 27. | University of Szeged | Macarıstan | 75.4 |
| =28. | Budapest University of Technology and Economics | Rumıniya | 73.2 |
| =28. | Tallinn University of Technology | Estoniya | 73.2 |
| 30. | Eötvös Loránd University | Macarıstan | 72.9 |
| 31. | Istanbul University | Türkiyə | 72.2 |
| 32. | University of Ljubljana | Sloveniya | 72 |
| 33. | Moscow State Institute of International Relations (MGIMO University) | Rusiya | 71.9 |
| 34. | Taras Shevchenko National University of Kyiv | Ukrayna | 71.7 |
| 35. | University of Debrecen | Macarıstan | 71.5 |
| 36. | Peter the Great Saint-Petersburg Polytechnic University | Rusiya | 69.9 |
| 37. | University of Zagreb | Xorvatiya | 69.8 |
| 38. | Hacettepe University | Türkiyə | 69.7 |
| 39. | University of Bucharest | Rumıniya | 69.5 |
| 40. | National Research Tomsk Polytechnic University | Rusiya | 68.8 |
| 41. | Vilnius Gediminas Technical University | Litva | 68.3 |
| 42. | Babes-Bolyai University | Rumıniya | 66.9 |
| 43. | Comenius University in Bratislava | Slovakiya | 66.2 |
| 44. | University of Latvia | Latviya | 65.1 |
| 45. | Corvinus University of Budapest | Macarıstan | 64.1 |
| 46. | Kazan (Volga region) Federal University | Rusiya | 64 |
| 47. | Sofia University St. Kliment Ohridski | Bolqarıstan | 63.2 |
| 48. | Ural Federal University | Rusiya | 61.9 |
| 49. | National Technical University of Ukraine "Igor Sikorsky Kyiv Polytechnic Institute" | Ukrayna | 61.5 |
| 50. | Kazakh National Research Technical University after K.I.Satpayev | Qazaxıstan | 60.1 |
| 51. | Kaunas University of Technology | Litva | 59.5 |
| 52. | University of Wroclaw | Polşa | 58.8 |
| 53. | V.N.Karazin Kharkiv National University | Ukrayna | 57.9 |
| 54. | University of Belgrade | Serbiya | 57.6 |
| 55. | Riga Technical University | Latviya | 57.3 |
| 56. | Palacký University in Olomouc | Çexiya Respublikası | 56.6 |
| 57. | The National University of Science and Technology MISIS | Rusiya | 55.8 |
| 58. | Wroclaw University of Technology | Polşa | 55.3 |
| 59. | Slovak University of Technology in Bratislava | Slovakiya | 55.1 |
| 60. | AGH University of Science and Technology | Polşa | 53.7 |
| =61. | Alexandru Ioan Cuza University | Rumıniya | 53.4 |
| =61. | Ankara Üniversitesi | Türkiyə | 53.4 |
| 63. | University of Pécs | Macarıstan | 52.2 |
| 64. | University of Chemistry and Technology, Prague | Çexiya Respublikası | 50.9 |
| 65. | Lobachevsky University | Rusiya | 50.7 |
| 66. | ITMO University | Rusiya | 50.3 |
| 67. | RUDN University | Rusiya | 49.9 |
| 68. | Kazakh-British Technical University | Qazaxıstan | 49.3 |
| 69. | Tallinn University | Estoniya | 48.6 |
| 70. | University of Maribor | Sloveniya | 48.1 |
| 71. | West University of Timisoara | Rumıniya | 47.5 |
| 72. | Vytautas Magnus University | Litva | 47.4 |
| 73. | Novosibirsk State Technical University | Rusiya | 46.8 |
| 74. | Adam Mickiewicz University | Polşa | 46.7 |
| 75. | Southern Federal University | Rusiya | 46.4 |
| 76. | The Bucharest University of Economic Studies | Rumıniya | 45.9 |
| 77. | Kazakh National Agrarian University | Qazaxıstan | 45.7 |
| 78. | Auezov South Kazakhstan State University (SKSU) | Qazaxıstan | 45.6 |
| 79. | Belarusian National Technical University | Belarus | 44.7 |
| 80. | Ege Üniversitesi | Türkiyə | 44.6 |
| 81. | University of Nova Gorica | Sloveniya | 44 |
| 82. | Izmir Institute of Technology (IZTECH) | Türkiyə | 43.8 |
| 83. | Plekhanov Russian University of Economics | Rusiya | 43.2 |
| 84. | VŠB - Technical University of Ostrava | Çexiya Respublikası | 42.9 |
| 85. | Gazi Üniversitesi | Türkiyə | 42.7 |
| =86. | Kazakh National Pedagogical University named after Abay | Qazaxıstan | 42.6 |
| =86 | University of Rijeka | Xorvatiya | 42.6 |
| 88. | The "Gheorghe Asachi" Technical University of Iasi | Rumıniya | 42.5 |
| 89. | Far Eastern Federal University | Rusiya | 42.3 |
| 90. | Czech University of Life Sciences in Prague | Çexiya Respublikası | 41.7 |
| =91. | Cracow University of Technology | Polşa | 41 |
| =91. | Tomas Bata University in Zlin | Çexiya Respublikası | 41 |
| 93. | National Technical University "Kharkiv Polytechnic Institute" | Ukrayna | 40 |
| 94. | University of Lodz | Polşa | 39.7 |
| =95. | Baku State University | Azərbaycan | 39.6 |
| =95. | Russian Presidential Academy of National Economy and Public Administration | Rusiya | 39.6 |
| =97. | Dokuz Eylül Üniversitesi | Türkiyə | 39.4 |
| =97. | University of Gdansk | Rusiya | 39.4 |
| 99. | Samara National Research University | Rusiya | 38.8 |
| 100. | Khazar University | Azərbaycan | 38.6 |


M.V.Lomonosov adına Moskva Dövlət Universiteti


Novosibirsk Dövlət Universiteti


Tartu Universiteti



Bakı Dövlət Universiteti



Xəzər Universiteti